*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 217-221* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.217*

***Folklorşünaslıq***

# AŞIQ ƏLƏSGƏRLƏ BAĞLI DASTAN – RƏVAYƏTLƏRDƏ YUXU MOTİVİ

**Tansu Rəsulova**
AMEA Folklor İnstitutu. Azərbaycan.
E-mail: tansu.kamal.94@mail.ru

**Annotasiya.** Qədim zamanlardan başlayaraq ədəbiyyatda yuxugörmə modeli kollektiv təhtəlşüurun ən effektli formalarından biri sayılıb. Yuxularda insanın altşüuru Dünyaya maksimal dərəcədə açıq olur, onda ilahi və ya iblis başlanğıclar təzahür edir.
Sufi-dərviş rəvayətlərində yuxu ali varlıqlarla dialoq formalarından biridir. Müqəddəslər, söyləyicilər daim yuxular görürlər.
Aşıq rəvayətlərində də qəhrəmanların həyatında həmin ənənə izlənilir. Bu rəvayətlərdə qəhrəmanın davranışı yuxu ilə müəyyən edilir. Epik ənənədə öncəgörmə yuxuları ikinci gerçəkliklə bağlı təsəvvürlərdən qaynaqlanır. Öncəgörmə yuxuları epik personajın düşüncəsində mühüm rol oynayır və süjetyaradıcı motivlərdən biridir. Aşıq rəvayətlərində də yuxu sujetyaradıcı element kimi çıxış edir.
**Açar sözlər:** rəvayətlər, Aşıq Ələsgər, motiv, yuxu, sakrallıq

**Məqalə tarixçəsi:** göndərilib – 20.06.2023; qəbul edilib – 06.07.2023

# EPOS ABOUT ASHUG ALASGAR – DREAM MOTIVE IN THE NARRATIVES

**Tansu Rasulova**
Institute of Folklore of ANAS. Azerbaijan.
E-mail: tansu.kamal.94@mail.ru

**Abstract.** Since ancient times, the dream model in literature has been considered one of the most effective forms of embodiment of the collective unconscious. In dreams, the human subconscious is maximally open to the World, the Divine and / or Devilish beginnings are manifested in it.
Dreaming of Sufi legends is one of the most popular forms of dialogue by the higher powers. Messengers, saints and storytellers have always seen prophetic dreams.
This tradition can be traced in the lives of the heroes of the ashug legends. In these legends, all the actions of the hero are predetermined by the dream. In the epic tradition the prophetic dreams originated from the imaginations of the second reality. The prophetic dream, which played an important role in the consciousness of the epic character, is one of the plot-forming motives. As one of the common motives in ashug legends, a prophetic dream contains several plot-forming goals.
**Keywords:** legends, Ashug Alasgar, motive, dream, sacrality

**Article history:** received − 20.06.2023; accepted − 06.07.2023

## Giriş / *Introduction*

Azərbaycan şifahi epik janrlar sistemində aşıq rəvayətləri, yaxud dastan-rəvayətləri özünəməxsus yer tutur. "Ustad aşıqların başına gələn maraqlı əhvalatlar, qarşılaşdıqları hadisələr, şəxsi həyatları ilə bağlı qeyri-adi məqamlar el-elat arasında yayıldıqca folklorlaşma prosesi sürətlənir. Istər etnosun sıravi nümayəndələri, istərsə də peşəkar folklor daşıyıcıları – aşıqlar tərəfindən müxtəlif ünsiyyət formaları (yolüstü söhbət, çayxana söhbəti, ocaqbaşı söhbət və s.) zamanı xüsusilə etnoqrafik mərasim içərisində təqdim olunur" [5, s.62].

## Əsas hissə / *Main Part*

Azərbaycan folklorşünaslığında dastan ənənəsində (xüsusən məhəbbət dastanlarında) yuxu motivləri geniş öyrənilsə də, aşıq rəvayətlərində, xüsusən ustad aşıqların həyatı ilə bağlı sujetlərdə oneyromotivlər (yuxu motivləri) bir qədər diqqətdən kənarda qalmış kimi görünür və belə təsəvvür formalaşıb ki, söyləyicilik sənəti, aşıqlıq vergisi ilahi qüvvələr tərəfindən verilir. İfaçılığın və söyləyiciliyin mifoloji – magik mahiyyətinə inam türk söyləyicilik ənənəsi üçün səciyyəvidir. Holland antropoloqu N.van der Heyde müasir qırğız dastançılarının yaradıcılıq laboratoriyasını öyrənərkən belə qənaətə gəlir: "Mən dastançılarla çöl araşdırmaları zamanı tez-tez ünsiyyətdə olurdum və "Manas" eposunun ifası zamanı tez-tez ünsiyyətdə olurdum. Və mən hiss edirdim ki, bu fenomeni elmi yolla izah etmək mümkün deyil. Mən heç şübhə etmirdim ki, manasçının yuxugörməsi onların Manas dünyasının ruhları ilə birbaşa əlaqəsidir. Mən ruhlarla ünsiyyət imkanını inkar etmək üçün səbəblər görmürəm, onun (yuxugörmənin – R.K.) psixoloji, sosial izahı var" [15, s.94].

Türk epik söyləyicilik ənənəsində "yuxu sxemləri"nin eyniliyi diqqət çəkir: "Sxemlərin ümumiliyi, fabulanın təxmini oxşarlığı yuxuların özünün də ənənəviliyini, kanonikliyini göstərir ki, bu da öyrənmə faktını inkar edir. Ola bilər, jomokçu yuxu-zad görməsin, amma özünə hörmət təlqin etməsi üçün sələflərinin etdiyi kimi, ondakı poetik başarının fövqəltəbii olmasını izah etməlidir. Yuxuların eyniliyi belə onları (jomokçuları –T.R.) utandırmırdı. Çünki bütün jomokçuları Manas seçir və hər birinin yuxusuna girməlidir" [12, s.26].

Qazax rəvayətlərinə görə, akın vergisi yuxuda verilir <...> Tanımadığı bir ixtiyar, ya da ünlü bir akın onun yuxusuna girir, buna qədər çalıb-oxumağı bacarmayan bir gəncə öz dombrasını verir, akın olacağını ona təlqin edir" [13, s.80]. Aşıq rəvayətlərində bu motivin geniş və dərin yer tutması bir daha təsdiq edir ki, yuxugörmələr söyləyici vergisini qazanmağın yollarından biridir. Azərbaycan yalnız röya/yuxu aktında fərqli sosial statusa – aşıq statusuna keçir.

Azərbaycan aşıqları da Həzrət Əlinin əlindən badə alıb aşıq olduqlarına inanırlar. "Yuxuda badə içən aşıqlar deyişmələrdə badəli aşıq olduqları üçün öyünürlər" [9, s.67]. Alman türkoloqu Karl Rayhl Təbrizli Aşıq Rəsulun yuxudan sonra aşıqlığa başlaması haqqında məlumat verir: "Təbrizli Aşıq Rəsul yuxusunda kiçik bir saz daşıyan bir fiqurun ona yaxınlaşdığını deyir. Bu adam Rəsuldan saz çala bilib-bilmədiyini soruşur. Rəsul dərhal adamın əlindən sazı alır və çalmağa başlayır. Rəsul oyananda ilk dəfə cəhd etməyinə baxmayaraq, həqiqətən də saz çala bildiyini görür" [10, s.61; 9, s.66].

Anadolu ozan sənətinin nümayəndəsi Aşıq Sümmaninin aşıqlığı yuxuda Xızır Nəbi tərəfindən verilir: "Hüseyn bunun yuxumu, xəyalmı olduğunu anlaya bilmir və özündən gedir. Hüseynin əmisi onu yorğun, ağzı köpüklü halda tapıb evə aparır. Evdə onu ayıldırlar. Bundan sonra Hüseyn hər gün ismi-azan duası oxuyur və qırx gün bir ağacın üzərini çərtərək işarə qoyur və heç kimə bir söz demir. 40-cı gün ərənlər çeşməsindən abdəst alır və namaz vaxtı olduğunu bilmək üçün günəşə baxarkən, yuxuya gedir və özünü divarları rəsmlərlə bəzədilmiş bir mağaranın içərisində yaşıl cübbəli üç dərviş və əvvəlcədən gördüyü Xızırın qarşısında görür. Dərvişlərin başları üzərində uçan 40 yaşıl göyərçin birdən insan qiyafətinə girir. Mağarada məclis qurulur. Onlar Hüseynə abdəst almağını söylədikdən sonra iki rükət namaz qıldırır-

lar, ona oxumaq-yazmaq öyrədib bir kağızda yazılı olan "Gülpəri" adını da oxudurlar. Ona üç badə verərək birini aləmləri yaradan aləmlərinin Rəbbi eşqinə, ikincisini Həzrət Məhəmməd eşqinə, üçüncüsünü də Çini-Maçin Bədahşan şəhərində Bədahşan əmirinin qızı Gülpəri eşqinə içirirlər. Hüseyn badəni içdiyi zaman baş ucunda Gülpərini görür. Pirlər Gülpəriyə də üç badə verirlər və sonuncunu "Sümmani eşqinə iç" deyirlər. Gülpəri badələri içdikdən sonra qeyb olur.

Hüseyn qan-tər içində yuxudan oyanır və hər tərəfi səssiz, qaranlıq görür. Göydə ulduzlar çıxmış, otardığı heyvanların da yox olduğunu görür və yenidən yuxuya gedir. Yuxuda Xızırı görür və Xızır ona "Əssəlami-əleyküm Sümmani" deyincə Hüseyn: "Sümmani kimdir?", – deyir. Xızır ona: "Qorxma, oğlum, sən bu gecə mətləbinə çatdın. "Sümmani" təxəllüsü sənə verildi. Yuxuda gördüklərini 40 gün heç kimə söyləmə" [4, s.151-152].

Aşıq Ələsgərlə bağlı dastan-rəvayətlər də bu qəbildəndir. "Ustad sənətkarla bağlı yaranan dastan-rəvayətlər, sözün həqiqi mənasında, Aşıq Ələsgərin həyat və sənət hekayətləridir. "Aşıq Ələsgər qarabağlıların yaylağında", "Aşıq Ələsgərin Qaraqoyunlu səfəri", "Aşıq Ələsgərlə Dəli Alı", "Ələsgərnən Səhnəbanı", "Aşıq Ələsgər Yanşaqda", "Aşıq Ələsgərlə Aşıq Şəmkirli Aşıq Hüseynin görüşü", "Aşıq Ələsgərnən Mir Məcid ağanın görüşü", "Bəşirin Molla Rəhimi vurması", "Aşığın qocalığı", "Dəyirmançı aşıq" və s. ustdaın həyatının müxtəlif səhifələrini əks etdirən avtobioqrafik hekayətlərdir. Bu dastan – rəvayətlərdən onun canlı sənətkar obrazı, şəxsiyyəti, hərəkət və davranışları, münasibətləri, səmimiyyəti və s. buradan boy göstərir" [8, s.11]. Böyük sənətkarın adına dastan-rəvayətlər düzülüb qoşulmasının bir neçə səbəbi ola bilər: 1) Aşıq Ələsgərin "əcdad", "ustad" arxetipinin daşıyıcısı olması; 2) Aşıq Ələsgər obrazının əfsanələşməsi və Haqq aşığı kimi sakrallaşması. "Bu, butavermə yolu ilə alınmış ilahi-ezoterik bilgi/elmdir. Onu ancaq haqq aşıqları bilirlər" [11, s.261]. Bildiyimiz kimi, Qurbani də üç gün yatır. "Bəli, vaxt gəldi keçdi. Qurbani üçüncü gün ayılıb gördü ki, başına çoxlu qız-gəlin yığılıb, dedi:

- Ay dədə, xalxınkı buradadı, bəs mənimki haradadı?

Mirzə xan dedi:

- Oğul, ölmüsən o dünyadan danış, sağsan bu dünyadan. Səninki, mənimki nədi?

Qurbani dedi:

- Dədə, bir başı limçə, bir başı çömçə olsa, dərdimi sənə söyləyə bilərəm.

Dədəsi dedi:

- Oğul, birbaşı limçə, birbaşı çömçə nə deməkdir? Sən mənimlə qarğa dili danışırsan:

Qurbani dedi:

- Dədə, ona həm dəm, həm də qəm qönçəsi deyirlər. O gahdan dəmə çalar, gahdan qəmə.

Bəli, gətirdilər Qurbaniyə bir dənə saz verdilər" [3, s.43].

Tədqiqatçılar yuxuda butavermə hadisəsini neofitin inisiasiya prosesi ilə əlaqələndirirlər.

Növrəs İmana aşıqlıq vergisi yuxuda verilir. "Aşıq Ələsgər və Növrəs İman" rəvayətində söylənilir ki, Növrəs İman üç gün yuxudan oyanmır və bu hadisə insanları təşvişə salır. Növrəs İman Aşıq Ələsgərin qardaşı oğludur. Hadisəni Aşıq Ələsgərə də çatdırırlar. "İman oyananda arvadı Gülnisə atasıgilə gedib İmanın oyanmasını anası Anaxanıma deyir. Anaxanım yavaşca Ələsgərin yanına gəlib deyir:

- A kişi, İman yuxudan ayılıb, get gör neyləyirsən?

Aşıq Ələsgər kiçik qardaşı Çoban Məhəmmədi yanına çağırıb deyir:

- Get İmanı yoxla, gör nədən danışır.

Məhəmməd İmanın yanına gələndə görür ki, bu, öz-özünə ərşdən-gürşdən danışır" [2, s.143-144].

Məhəmməd vəziyyəti anlayır, onun "başqa" dünya ilə əlaqədar olduğuna inanır. Aşıq Ələsgər Növrəs İmana vergi verilməsini təcnis ilə sınaqdan keçirir:

"Məhəmməd gəlib qardaşı Ələsgərə dedi ki, onunku hax vergisidi. Ələsgər oğlu Əbdüləzimə deyir:

- İndi də sən get İmanı yoxla, ona bir təcnis de" [2, s.145].

Rəvayətdə Növrəs İmanın yuxusu eşq dastanlarındakı butavermə aktını xatırladır. Növrəs İmana yuxuda haqq aşıqlığı vergisi verilir.

Növrəs İmanın yuxusunu Aşıq Ələsgər yozur. "Burada "yuxuyozan" mediator obrazdır, o dünya və bu dünya arasında əlaqələndiricilik funksiyasını yerinə yetirir" [7, s.32]. Aşıq Ələsgər həmin hadisədə Növrəs İman ilə ilahi varlıqlar arasında mediator rolunu – "yuxuyozan" funksiyasını yerinə yetirir.

Aşıq dastan-rəvayətləri epik və lirik elementləri özündə birləşdirir. Aşıq Ələsgərin "Haqq aşığı" obrazını yaratmaq üçün poetik mətnlər əsasında mistik dünyası və sakral obrazı bərpa olunur. "Bu epik mətnlərin bir qismi gerçək əhvalatları çevrələdiyi kimi, bir xeyli qismi də sonrakı dönəm aşıqların və el-camaatın təxəyyülü vasitəsi ilə ortaya çıxmışdır" [8, s.5].

Xatirələrdən, ağsaqqalların söhbətlərindən belə məlum olur ki, aşıq Ələsgər baş verəcək hadisələri yuxusunda görürmüş: "o, bəzən gündüz baş verəcək hadisələri əvvəlcədən (gecə) yuxuda görürmüş, bir çox məsələlərin həlli yollarını yuxuda müəyyənləşdirirmiş" [6, s.24]. Aşıq Ələsgər ilahi mətləblərə yuxular vasitəsilə agah olduğunu şeirində də işarə edir.

*Oxuram "inna-fətəhna",*
*Mətləb allam yuxuda,*
*Şahi – Mərdan nökəriyəm,*
*Dərsimi pünhan verir".* [1, s.201]

Aşıq Hüseyn Şəmkirlinin Ağkilsəyə qonaq gəlməsi Aşıq Ələsgərə məhz yuxuda əyan olur. O, yuxudan oyanan kimi evdəkilərə qonağı qarşılamaq üçün hazırlıq görülməsini tapşırır:

"Bəli, mənim əzizlərim, Aşıq Hüseyn Zodda söhbət eləməkdə olsun, sizə deyim Aşıq Ələsgərdən. Aşıq Ələsgər həmin gecə Aşıq Hüseynin gəlməyini yuxuda gördü.

Dağ otu biçilirdi. Aşıq Ələsgər də biçinə gedirdi. Bu gün o, biçinə getmədi. Arvadı Anaxanım onun yanına gəlib dedi:

- A kişi, camaat biçinə getdi, sən niyə yubanırsan?

- Arvad, mən bu gün getməyəcəm.

- Niyə?

- Bu gün Şəmkirli Aşıq Hüseyn bizə qonaq gələcək.

Anaxanım daha bir söz soruşmadı. Başladı ev-eşiyi səliqəyə salmağa. Aşıq Ələsgər qardaşı Məhməmədi yanına çağırıb dedi:

- Məhəmməd, durma, get yaylaqdan heyvan gətir.

- Ay qağa, xeyirdimi?

- Bu gün Şəmkirli Aşıq Hüsyen bizə qonaq gələcək.

- Ay qağa, kim dedi?

- Yuxuda görmüşəm. Sən durma, get heyvan gətir. Gerçək olar, qonağımıza kəsərik, qonaq gəlməsə, özümüzə kəsərik.

Məhəmməd atı mindi, heyvan gətirməyə getdi.

Aşıq Ələsgər qapı-bacada hərlənib, qonağın yolunu gözləməyə başladı. Bir də gördü ki, Zod yolu ilə bir atlı gəlir" [1, s.352].

Göründüyü kimi, bu aşıq dastan – rəvayətlərində də "yuxu semiotik proses kimi" [14, s.125] iştirak edir.

## Nəticə / *Conclusion*

Yuxu motivləri aşıq rəvayətlərində sujetyaradıcı element olub, bədii-estetik funksiyanı yerinə yetirir. Aşıq Ələsgərlə bağlı rəvayətlərdə yuxu motivlərinin yer alması, ilk növbədə, təsəvvüf ənənəsi ilə bağlıdır. Aşıqlıq vergisinin verilməsi, buta hadisəsi, kəramətlər sakral yuxular vasitəsilə gerçəkləşir, onun davranışının modelləşdirilməsi baş verir. Aşıq Ələsgərin sakral obrazının və statusunun formalaşmasında "yuxu mətni" mühüm rol oynayır. Aşıq Ələsgərin həyatında baş vermiş hadisələrin izahı yuxu motivlərinin aktuallığını şərtləndirir.

## Ədəbiyyat / *References*


1. Aşıq Ələsgər (əsərləri, dastan-rəvayətlər, xatirələr...) – Bakı: Şərq-Qərb, 1999.
2. Aşıq Ələsgərlə bağlı dastan-rəvayətlər. – Bakı: Azərbaycan Aşıqlar Birliyi, 2021.
3. Azərbaycan dastanları. 5 cilddə, I cild. – Bakı: Lider, 2005.

4. Hacıyeva, M. Türk aşıqları. – Bakı: Elm, 2004.
5. Xəlilova, A. Aşıq rəvayətlərindən dastana doğru. // “Qobustan” dərgisi, 2005, II.
6. İslam Ələsgər. Ulu ustad // Aşıq Ələsgər (əsərləri, dastan-rəvayətlər, xatirələr…). – Bakı: Şərq-Qərb, 1999.
7. Qarayev, S. Mifin tarixə müdaxiləsi: 21 dekabr 2012-ci il. – Bakı: Sabah, 2018.
8. Qasımlı, M., Allahmanlı, M. Aşıq Ələsgərlə bağlı dastan-rəvayətlər. // Aşıq Ələsgərlə bağlı dastan-rəvayətlər. – Bakı: Azərbaycan Aşıqlar Biliyi, 2021.
9. Özdamar, F. Təbriz aşıqlıq ənənəsi və Təbrizli Aşıq Əli (Əli Feyzullahi Vahid). – Bakı: “Davam” nəşriyyat-poliqrafiya evi, 2017.
10. Reihl, K. Türk boylarının dastanları (gələnək, formalar, şeir quruluşu). Tərc. Metin Ekici. – Ankara: TDR, 2002.
11. Rzasoy, S. Azərbaycan dastanlarında şaman – qəhrəman arxetipi (“Əsli-Kərəm” və “Dədə Qorqud”). – Bakı: Elm və təhsil, 2015.
12. Ауэзов, М.О. «Манас» – киргизская героическая поэма. – Алматы: ИД «Жибек жолы», 2011.
13. Исмаилов, Е. Акыны: Монография о творчестве Джамбула и других народных акынов. – Алма-Ата, 1957.
14. Лотман, Ю.М. Семиосфера. – СПБ.: Искусство, 2000.
15. Хейде ван дер, Н. Сновидения манасчи // Тил, адабият, жана искусство маселелери. Илимий журнал, КР УИАнын Гуманитардык жана экономикалны илимдер болуму, Ч.Айтматов атындагы Тил жана адабият институту. – Бишкек, 2014.

## ДАСТАН ОБ АШУГЕ АЛЕСКЕРЕ – МОТИВ СНОВИДЕНИЯ В ПРЕДАНИЯХ

**Тансу Расулова**
Институт фольклора НАНА. Азербайджан.
E-mail: tansu.kamal.94@mail.ru

**Резюме.** С древних времен сновидческая модель в литературе становится одной из наиболее эффективных форм воплощения коллективного бессознательного. В снах человеческое подсознание максимально открыто Миру, в нем проявляется Божественное и/или Дьявольское начала. Сновидчество в суфийских преданиях одна из наиболее популярных форм диалога с высшими силами. Праведники, святые и сказители всегда видели вещие сны. Такая традиция прослеживается в жизни героев ашугских преданий. В этих преданиях все действия героя предопределяются сновидчеством. В эпической традиции вещие сны восходят к архетипическим представлениям о сне как о второй реальности, параллельной обыденному. Вещий сон, который играл важную роль в сознании эпического персонажа, является одним из сюжетообразующих мотивов. Как один из распространенных мотивов в ашугских преданиях, вещий сон содержит в себе несколько сюжетообразующих целей.
**Ключевые слова:** предания, Ашуг Алескер, мотив, сновидения, сакральность